# Qoqol, Tolstoy darıxdırıcıdı, Elxan Elatlı yox?

## *Kitabevim.az mağazasından reportaj*

2012-ci ildən fəaliyyətdə olan gənc yaradıcıların tez-tez baş çəkdiyi Kitabevim.az mağazasıdır. Bəlkə də, onlara yenicə işıq üzü görmüş kitablarının təqdimatına, imza günü keçirməklərinə şərait yaratdıqlarına, burada tez-tez toplaşdıqlarına görə o biri kitab evlərindən daha doğmadır. Təqdimatın keçirilməyi üçün qoyulan şərtlər kimlərisə ürəyincə olmasa da, məsələnin görünən tərəf odur ki, "Kitabevim.az"da tez-tez imza günləri keçirilir və bura xeyli yazıçı, şair, oxucular toplaşır. İstər-istəməz rəflərdə "gəl-gəl" deyən kitablara maraq oyanır. Bəlkə də, bu cür ədəbiyyat qoxulu məkanda çoxdan bəri mütaliəyə yadırğayan insanlar da, həvəsə düşüb yenidən kitab alıb oxuyurlar. Hər bu cür tədbirdə, yığıncaqda iki-üç nəfərində yenidən kitab oxumağa cəlb etmək də çox böyük nailiyyətdir.



Bu dükanda istənilən səviyyədə oxucu üçün kitab var. Azərbaycan, rus, türk və ingilis dillərində, müxtəlif yaş və intellekt səviyyəsində hər bir oxucu axtardığı kitabı tapa bilər. Rəflərə göz gəzdirdim. Çeşid, həqiqətən də, çoxdur. Uşaq kitabları da, elmi kitablar da, dərslik və metodik vəsaitlər də, klassik və müasir ədəbiyyat da - hər nə desən var. Alıcı sarıdan da bir o qədər əziyyət çəkmirlər. Menecerlə söhbət əsnasında öyrəndim ki, ildən ilə mütaliə ənənəsi xalq arasında yenidən dirçəlir və kitab satışı yaxşılaşmağa başlayır. Hər halda əvvəlki illərdəki durğunluqdan xilas oluruq.

Gənclərin nə oxuduğunu, daha çox hansı tip kitablarla maraqlandırdığını soruşuram. 2016-cı ilin ən çox satılan kitabı Rövşən Abdullaoğlunun "Bu şəhərdə kimsə yoxdur" romanıdır. Dediyinə görə ən çox sevilən və alınan kitab budur, əl-əl gəzir. Bu il də alıcısı - oxucusu çoxdur. Xalid Hüseynin "Çərpələng uçuran" romanı da çox satılır. Həmin müəllifin "Min möhtəşəm günəş" əsəri də pis satılmır.

"Xan" nəşriyyat evinin Xatirə ədəbiyyatı seriyasından olan kitablar da maraq doğurur. Onlardan ən çox alınanı gözəl şairimiz Mikayıl Müşfiqə həsr olunmuş "Müşfiqli günlər" kitabıdır. Riqqs Rensomun "Xanım Pereqrinenin qəribə uşaqları" kitabı da ən çox satılanlar sırasındadır. Den Braunun "Xəyanət nöqtəsi" əsəri də onlardan geri qalmır. Gənc qızlarsa daha çox romantik mövzulu kitablara üstünlük verir. Klassik və ciddi ədəbiyyat satış baxımından bir az geridə qalsa da, yenə də onların da özünə uyğun oxucusu - müştərisi var. Hələ də Tolstoyu, Hesseni, Dostoyevskini, Turgenevi, Kafkanı, Selencerin kitablarını soruşub alanlar tapılır.



Müasirlərimizdən Elxan Elatlının, Qaraqanın kitablarına gənclər arasında hədsiz böyük maraq var. Menecerin dediyinə görə, hətta Qaraqanın kitablarının rəflərə düzülməyi ilə satılmağı bir olur.

Alman klassiklərindən Erix Mariya Remarkın kitablarıyla maraqlanan çoxdur. Dünya ədəbiyyatından tanınmış Braziliya yazıçısı Paulo Koelyonun da kitabları da yaxşı alınır. Şeir kitablarına o qədər də maraq yoxdur. Klassik şairlərin kitabları alınsa da, müasir, gənc şairlərin kitabları az alınır. Tədbir olan günlərdə əgər imza günü şeir kitabı üçün keçirilirsə, həmin gün və o şairin kitabları dost-tanışları tərəfindən bir xeyli alınır.

Dükandakı müştərilərlə də söhbətləşdik. Universitet tələbəsi olan gənc motivasiya üçün kitabları böyük həvəslə oxuduğunu dedi. Napoleon Hillin 10-a yaxın kitabını oxuduğunu, ən çox da "Dostları necə qazanmalı", "Düşün və varlan" kitablarını olduqca bəyəndiyini söylədi. Bu kitablardan nə öyrəndiyini, nə əldə etdiyini soruşanda, "ailəmdən çox onun kitablarından tərbiyə almışam. Mənim düşüncə tərzimə, fikirlərimə böyük təsiri var. İlk dəfə kitabların adı cəlb etmişdi. Maraqlanıb aldım. Olduqca böyük zövq verdi mənə. "Düşün və varlan" kitabını artıq dörd dəfə oxumuşam. Masaüstü kitabımdı mənim. Oxuduqca mənəvi cəhətdən zənginləşdiyimi hiss edirəm. Mənim həyatımda bu kitablar böyük dönüş edib, yaxşı yönə doğru dəyişilmişəm. Napoleon Hillin əsərlərini oxumaqdan yorulmuram. Mütaliədən ləzzət almaqla yanaşı özümü də inkişaf etdirirəm.

Elxan Elatlının kitabını alan başqa bir gənclə həmsöhbət oldum. Klassik ədəbiyyatla arasının necə olduğunu soruşdum. Əlində Elatlının kitabını yelpiç kimi açaraq dedi: "Qoqolu, Tolstoyu, oxumağa çalışsam da yarımçıq qoymuşam. Həddindən artıq uzunçudurlar. Gərəksiz və uzun-uzadı ayrıntılara, xırdaçılıqlara varırlar deyə, darıxıb oxuya bilməmişəm. Kafkanısa, ümumiyyətlə sevmirəm. Onun əsərləri insanı intihara sürükləyir. Oxuyanda həm beynin yorulur, həm də ruhun. Elxan Elatlının "Seçilmiş cəza", "Bakıdan gələn xəfiyyə", "Qan ləkəsi", "O gecə yağış yağırdı", "Görünməyən izlər" kitabını isə həvəslə oxumuşam. Çox xoşuma gəlir bu yazıçı. Varisin də bir neçə kitabını oxumuşam. O da yaxşı yazır. Ən çox "Üçbucaq"ı bəyənirəm. Siz də oxuyun, peşman olmazsınız".



Detektiv janrında olan kitabların alıcısı lap çoxdur. Bu janrda ən çox da elə Çingiz Abdullayevin kitabları alınır. Amma onu daha çox rusdillilər oxuyur. Elə orada olduğum müddətdə də bir orta yaşlı xanımın Çingiz Abdullayevin rus dilində çap olumuş "Anqliyskiy bulvar" və "Zakat v Lissabone" kitablarını seçib aldığının şahidi oldum.

Uşaq ədəbiyyatından da çeşid-çeşid kitablar var. "Azərbaycan nağılları", "Sehrli şamdan", " Yeddi gəlin" və s. kiçik həcmli, rəngarəng kitabçalar alıcıların ixtiyarına verilib. Rus dilində olan uşaq kitablarının daha gözəl, daha səliqəli və məntiqlə işləndiyini görmək elə də çətin deyildi. Kitablardakı fərq nəzərə çarpacaq dərəcədədir, təəssüf ki. Lakin əvvəlki illərə baxanda bizim nəşriyyatların uşaq ədəbiyyatı məhsullarında da xeyli irəliləyiş var.

"Qanun" nəşriyyatının Ən Yeni Tərcümə seriyasındansa Nikolas Sparksın "Sevgili Con" əsəri yaxşı alınır. Coco Moyesin "Səndən öncə mən", "Səndən sonra" və "Bir üstəgəl bir" kitablarının da öz oxucusu var. Son zamanlar İran əsilli yazıçı Pərinuş Səniinin avtobioqrafik romanı olan "Mənim payım" kitabı da dəbə düşüb.

Nəhayət, kitabları gözdən keçirəndən sonra Selencerin "Çovdarlıqda uçurumdan qoruyan"ını alıb çıxıram... Hava buludludu, amma günəş şüası az da olsa görünür... Kitab həmişə işıq payıdır...

**Xanım AYDIN**



